# “XANKƏNDİDƏ TƏHSİL ALMAQ BÖYÜK QÜRURDUR”

## Qarabağ Universitetinin ilk dərs günündən reportaj

**Asan radioda himnimiz səslənir. Yolumuz minlərlə canın qurban olduğu Qarabağadır. Üçrəngli bayrağı ilə məsud olub, gülüstana dönən Xankəndiyə gedirik. Gəlişimiz müqəddəs bir missiyanın reallaşması ilə bağlıdır. Qarabağın ilk ali təhsil müəssisəsi – Qarabağ Universiteti ilk tədris ilinə başlayır. İndi Xankəndi tələbələrin, gənc nəslin addımları ilə bir az da canlanır.**

### “İlk tələbələrdən olmaq və daha yaxşı təhsil almaq üçün Qarabağ Universitetini seçdim”

Tələbələrin yurda qayıdış sevincinə canlı şahid olmaq üçün ilk dayanacağımız Qarabağ Universitetinin tələbə yataqxanası olur. Yataqxanaya çatanda qarşılaşdığımız mənzərə bizi olduqca xoşhal edir. Tələbələrin son hissəsi də bu gün yataqxanaya yerləşdirilir. Valideynlər övladları ilə sağollaşıb, onları yataqxanaya yola salırlar.

İçəri keçirik. Universitetin əzəmətli və böyük yataqxanası ayrıca bir şəhərciyə bənzəyir. Tələbələr böyük bir həvəslə yeni tədris ilinə hazırlaşırlar. Kimi əşyalarını yerləşdirir, kimisi də... Ölkəmizin müxtəlif regionlarından gələn tələbələrin sevinc, qürrə dolu saf gülüşləri yataqxananın həyətindən ucalaraq Xankəndi səmalarına yayılır. Bu gün hava bizi xoş qarşılayıb, təbiət də bizdən yanadır, hər şey möhtəşəm bir harmoniya içərisindədir.

Tələbələri müşahidə edirəm. Elə bu dəm axtarışda olduğumu hiss edən tələbələrdən biri yanıma gəlir və özünü təqdim edir. 16 yaşlı Arslan Novruzlu Naxçıvanın Babək rayonundandır. Nəhəcir kənd tam orta məktəbində təhsil alıb. 530 balla Qarabağ Universitetinin “Kompüter mühəndisliyi” ixtisasına qəbul olub: “İlk tələbələrdən olmaq və daha yaxşı təhsil almaq üçün Qarabağ Universitetini seçdim. Ayın 17-dən Xankəndidəyəm. Buranın sərin havasını da çox bəyəndim.

Arslanla söhbətimizi bitiririk, ancaq başqa bir işinin olub-olmadığını soruşduqdan sonra bizə bələdçilik etməsini xahiş edirəm. Tələbə qızlardan birinə yaxınlaşıram. Fidan Şıxəliyeva Bakı şəhəri 2 nömrəli tam orta məktəbin məzunudur. 548,5 balla Qarabağ Universitetinin “Xarici dil müəllimliyi” ixtisasına qəbul olub: “Ayın 18-dən Xankəndidəyəm. Yataqxanada qaldığımız otaq hər şeylə təmin olunub. Açığı öz evimizdə yeməklərə qarşı çox həssas idim, amma buradakı yeməklər çox dadlıdır”.

Elə bu dəm yeməkxanadan çıxan iki tələbə qız söhbət edə-edə bizə yaxınlaşır. Sara Əsədlinin 18 yaşı var. O da Sumqayıtdan Xankəndiyə gəlib: “Düşündüm ki, işğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən universitetdə niyə təhsil almayım? İndi də burada olmaqdan qürur duyuruq. Universitetə qəbul olmaq üçün iki imtahan vermişəm. TC imtahanından 529, DT imtahanından isə 608 bal toplamışam. Beynəlxalq münasibətlər fakültəsini seçmişəm. Biz universitetdə dil mərkəzi ilə tanış olduq, əminəm ki, orada dil biliyimizi inkişaf etdirəcəyik”.

### “Yataqxanamızda hər bir şərait yaradılıb”

Laləzar Abbasova isə Ağcabədinin Qaravəlli kəndindəndir. Onun da 18 yaşı var. 490 balla psixologiya fakültəsinin tələbəsi adını qazanıb. Digər tələbə yoldaşları kimi o da burada təhsil almaqdan qürur duyur: “Bu günü yaşadığımız üçün şəhidlərimizə Allahdan rəhmət diləyirəm. Yataqxanamızda və Xankəndidə qalmaq üçün bizə hər bir şərait yaradılıb. Bunun üçün ölkə rəhbərimizə təşəkkürümü bildirirəm”.

Tələbələrin yüksək fikirləri məni yeməkxana ilə şəxsən tanış olmağa sövq edir. Baş aşpaz Həmid Şibiliyev: “Qarabağ Universitetinin ilk tələbələri ilə işləmək və Xankəndidə olmaq çox qürurvericidir. Allahdan şəhidlərimizə rəhmət diləyirəm. İnanıram ki, bu işin öhdəsindən layiqincə gələcəyik. Tələbələrin də fikirlərini alırıq, açılışından sonra menyunu onların istəklərinə uyğun olaraq bir az da genişləndirəcəyik. Qeyd edim ki, bütün yeməklərdə keyfiyyətli məhsullardan istifadə edirik”.

Yeməkxananın çıxışında bələdçim Arslanın yanında bir cavan oğlanın olması diqqətimdən yayınmır. Onun da təəssüratlarını alırıq. Məhəmməd Ələkbərlinin 17 yaşı var və Salyandan gəlib. O “Kompüter mühəndisliyi” ixtisasına 499 balla qəbul olub. Deyir ki, məqsədi Qarabağ Universitetinin ilk tələbəsi olub tarixə adını yazdırmaqdır: “Buradakı mühitin bizi sosiallaşmağa sövq edəcəyindən əminik. Yataqxanamızda tələbənin hər bir istəyi qarşılanıb. Xankəndidə təhsil almaq çox böyük qürurdur”.

Uşaqlarla söhbətimizi bitirib çıxışa doğru gedirik. Yataqxananın önündə övladını qürur hissi ilə bağrına basan bir ata xüsusi diqqətimizi çəkir. Yaxınlaşıb hal-əhval tuturuq. Elşən Orucov Gəncədən gəlib. Övladı Simarə tarix fakültəsində təhsil alır. O deyir ki, övladının Xankəndidə ilk məskunlaşanlardan, həm də universitetin ilk tələbələrindən olması böyük qürurdur: “Ümid edirəm ki, tələbələr buranı bir yerdə dirçəldəcəklər”.

### “Bu şərəfli missiyanın bir hissəsi övladlarımızın üzərinə düşür”

Valideyn Vaqif Hüseynovla da həmsöhbət oluruq. Onun övladı “Dövlət və bələdiyyə idarəetməsi” ixtisasına 360 balla qəbul olub: “Özümüz Qubadlıdanıq, Sumqayıtda məskunlaşmışdıq. Övladımın məhz öz torpaqlarımızda təhsil almasını istədim. Həm övladımın burada qalıb çalışmasını, həm də özüm bu yerlərdə çalışmaq, yaşamaq istəyirəm. Allahdan şəhidlərimizə rəhmət diləyirəm, onların sayəsində bu günləri görürük”.














Bakı şəhərindən gələn Şahnaz Həmzəyeva deyir ki, burada təhsil almaq övladının öz seçimidir: “Övladım “Turizm işinin təşkili” ixtisası üzrə təhsil alacaq. Övladlarımız Qarabağı yenidən qurmağa gəliblər. Bu yolda bizə ancaq onlara dəstək göstərmək qalır”.

Elşən Həmzəyevin övladı isə rəssamlıq kollecini bitirəndən sonra burada “Dizayn” ixtisasında təhsilini davam etdirəcək: “Allah şəhidlərimizə rəhmət eləsin, yurdu yaşatmaq lazımdır və bu şərəfli missiyanın bir hissəsi bizim övladlarımızın üzərinə düşür, həqiqətən böyük qürur və fərxrdir”.

Valideynlərə və bələdçim Arslana uğurlar diləyib otelə yola düşürük. Sabah gərgin və məhsuldar bir gün bizi gözləyir.

### Qarabağ Universitetində ilk dərs

İlk tədris ilinin başlanması ilə əlaqədar keçirilən təntənəli tədbirdə iştirak etmək üçün universitetə üz tuturuq. Qarabağ Universitetinin rektoru Şahin Bayramov tələbələri salamlayaraq tədbiri açıq elan edir.

Sonra rektor tələbələrə yeni dərs ilində uğurlar arzulayaraq bildirir ki, burada təhsil alan gənclər Qarabağ Universitetinin ilk tələbəsi olmaqla, həm də ilk məzunu olmaq şansını qazanıblar. Tələbələr universitetin və bütövlükdə regionun inkişafında fəal rol oynayacaqlarına əminlik ifadə olunub.

Universitetin mətbuat xidmətinin rəhbəri Aytən Quliyeva bizi ali təhsil müəssisəsi ilə tanış edir. Onun da təəssüratlarını öyrənirik: “Xüsusilə belə bir məkanda tələbələrlə bir yerdə olmaq, onlarla işləmək olduqca xoşdur”.

### “Qarabağ Universitetində işləmək mənim üçün bir vəzifə yox, missiyadır”

Qarabağ Universitetinin elm və innovasiya məsələləri üzrə prorektoru Fariz Əhmədovun dəhlizin o başından tələbələrlə hal-əhval tutaraq bizə tərəf gəldiyini görürük. Onunla da həmsöhbət oluruq. “Tələbələrin köçü başlayanda bizim həyəcanımız daha da artdı. Qarabağ Universitetində işləmək mənim üçün bir vəzifə yox, missiyadır”.

Qarabağ Universitetinin sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Nərgiz İsmayılova da bizi salamlamağa gəlir. O deyir ki, yüksək nəticə göstərən tələbələrlə bir yerdə işğaldan azad edilmiş Xankəndidə olmaq böyük qürurdur. Qarabağ Universitetinin ilk əməkdaşı olmaq həyatımızın unudulmaz anlarından biri kimi daim yaddaşımızda qalacaq.

Universitetlə yeni tanış olan tələbələri, onlara yol göstərən, dəstək olan həvəsli müəllimləri müşahidə edirik.

Qarabağ Universitetinin iqtisadiyyat fakültəsinin müəllimi Elxan Qurbanlı da inanır ki, Qarabağ Universiteti işğaldan azad olunmuş torpaqlarda inkişafımıza, möhkəmlənməyimizə töhfə verəcək.

Qarabağ Universitetinə gələnə qədər Xəzər Universitetində müəllim kimi çalışıb: “Dəvət gələndə tərəddüd etmədən “hə” dedim. Mənə bir il öncə deyilsəydi ki, Qarabağ Universitetində müəllim kimi çalışacaqsan, bu universitetdə, bu torpaqlarda məsuliyyətli peşəni icra edəcəksən, inkişaf edən Azərbaycanın gələcəkdə layiqli təmsilçilərinin yetişdirilməsinə töhfə olacaqsan, inanmazdım. Bu gün isə bütün bunlar realdır”.

Otaqlardan birində “Ölkəm” mahnısının ifa edildiyini eşidirik. Yaxınlaşanda onun incəsənət fakültəsinin tələbəsi olduğunu öyrənirik. Həbib Hüseynov 25 yaşındadır. Naxçıvanın Babək rayonundandır. Orada musiqi kollecində təhsil alıb: “Bir müddət filarmoniyada işlədim. Sonra düşündüm ki, ali təhsil almaq daha yaxşıdır. Qarabağ Universitetini ilk sırada yazdım. Vokal müəllimim Anar Şuşalıdır. Qarabağın havası, suyu incəsənət adamlarını yetişdirir. Buraya gələndən səsim açılıb. Burada orkestrlər yaradıb, konsertlər vermək fikrimiz var”.

Həyətə çıxıb, üç tələbə qızın əyləşib söhbət etdiyini görüb onlara yaxınlaşıram. Böyük həvəslə təəssüratlarını bölüşmək istədiklərini deyirlər. Öyrənirəm ki hər üçünün 17 yaşı var və “İngilis dili müəllimliyi” ixtisasına qəbul olub. Nərmin Məhərrəmzadə və Solmaz Şükürzadə Bərdə rayonundan, Xədicə Məmmədova isə Mingəçevirdən gəlib. Onlar universiteti çox bəyəndiklərini deyirlər və hər kəsi Qarabağ Universitetində təhsil almağa çağırırlar.

Universitetdə işlərimizi dərslərin də yekunlaşdığı bir saatda bitiririk. Xatırlayıram ki, Qarabağ Universitetində şəkil çəkdirməyi unutmuşam. Həyətdə skamyalardan birində tək əyləşən tələbə oğlandan fotomu çəkməyini xahiş edirəm. Tuncay Əliyev deyir ki, dərsi bitib, sadəcə universitet o qədər qəşəngdir ki, getmək istəmir, oturub mənzərəni izləyir.

Onunla bir yerdə əyləşib söhbətləşirik, deyir ki, Xankəndinin havası da, özü də çox gözəldir. Bura gəldiyi üçün çox xoşbəxtdir.

Saata baxıram ki, artıq yola çıxmalıyıq. Tuncayla sağollaşıb maşına üz tuturam. Qürur, fərəh, sevinc hisslərinin kövrəkliklə qovuşduğu Xankəndidən ayrılırıq. Ancaq bu ayrılıq müvəqqətidir. Əminik ki, hələ Xankəndidə, Qarabağ Universitetində çoxsaylı tədbirlər keçiriləcək. Biz də bu yerlərə yenidən qayıdacağıq…

**Günel ABBAS**